# İKT sahəsində dərc olunmuş ən yaxşı elmi işlərə görə mükafat müsabiqəsi

Bakı şəhəri 13 noyabr 2013-cü il

Yeni texnologiyaların, o cümlədən İKT sferasının inkişafı Azərbaycanın gələcəyini təmin edən mühüm səbəblərdən biridir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bütün sahələr kimi, İKT-nin inkişafı istiqamətində də görüləcək işlərin parametrlər üzrə müəyyənləşdirilməsi, dövlət başçısının 2013-cü il 28 mart tarixli Sərəncamı ilə 2013-cü ilin ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olunması bu sektora göstərilən yüksək diqqətin bariz nümunəsidir.

"Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın 29-cu bəndinə əsasən "İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi" məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və digər qurumlarla birgə tədbirlər həyata keçirir.

Elmin İnkişafı Fondu tərəfindən 2013-cü ildə İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə bir neçə qrant müsabiqəsinin (pilot layihə, fundamental-tətbiqi xarakterli layihələr və s. üzrə) keçirilməsi qərara alınmışdır. Bu məqsədlə müsabiqə şərtləri, elmi istiqamətlər və prioritetlər müəyyənləşdirilmişdir.

Elmin İnkişafı Fondu 2013-cü ildə İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə nəzərdə tutulmuş bir neçə qrant müsabiqəsindən birincisini İKT üzrə pilot layihə müsabiqəsi kimi elan edərək keçirmişdir. **1-ci məqsədli İKT müsabiqəsi** üzrə Elmin İnkişafı Fondunun böyük maliyyə həcmli (bir milyon beş yüz min manat olmaqla) pilot layihəsi vasitəsilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında İKT infrastrukturunun və modern kitabxana sisteminin yaradılması üçün informasiya-kommunikasiya texnologiyaları və avadanlığı ilə təminatının əhəmiyyətli hissəsi reallaşdırılır.

2013-cü il 5 sentyabr tarixində Elmin İnkişafı Fondu və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən elan edilmiş **2-ci məqsədli birgə İKT qrant müsabiqəsi** İKT-nin inkişafına yönəlmiş elmi-tədqiqat layihələrinin və tədbirlərinin maliyyələşdirilməsi məqsədi ilə fundamental-tətbiqi, axtarış-innovasiya, maddi- texniki təminat xarakterli, elmi tədbirlərin təşkili və b. tipli layihələrin dəstəklənməsini nəzərdə tutur. Müsabiqə üzrə maliyyələşdirilmənin cəmi həcmi bir milyon iki yüz min manat nəzərdə tutulmuşdur. Elmin İnkişafı Fondu bu müsabiqəyə bir milyon manat maliyyə vəsaiti ayırmışdır. Hal-hazırda müsabiqəyə daxil olmuş 60-dan çox layihənin elmi ekspetizası işi həyata keçirilir. Nəticələrin 2013-cü ilin dekabr ayında açıqlanması planlaşdırılır.

Elmin İnkişafı Fondu və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən

keçirilən **3-cü birgə İKT üzrə mükafat müsabiqəsi** çərçivəsində isə İKT sahəsində fəal çalışan alim və mütəxəssislərin fəaliyyətinin stimullaşdırılması məqsədilə İKT sahəsində dərc olunmuş **ən yaxşı elmi işlərin** qiymətləndirilməsi və mükafatlandırılması nəzərdə tutulur.

Fond və Nazirlik tərəfindən qaliblərə müxtəlif nominasiyalar üzrə diplomlar, sertifikatlar və pul mükafatları, müsabiqənin sponsorları olan "Nar Mobile" mobil operatoru və "BestComp Group" şirkəti tərəfindən isə onlara İKT-yə aid qiymətli hədiyyələr təqdim ediləcəkdir. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası tərəfindən təşkilati dəstək göstəriləcəkdir. Təbliğat və təşviqat işində "Nar Mobile" mobil operatoru şirkəti yaxından iştirak edəcəkdir.

Nəticələrin 2013-cü ilin dekabr ayında açıqlanması və qaliblərin xüsusi təqdimat mərasimində mükafatlandırılması nəzərdə tutulur.

Qaliblərin seçilməsi prosesində Elmin İnkişafı Fondunun müstəqil ekspertləri, Himayədarlar Şurası və icraçı direksiyası ilə yanaşı, müsabiqə təşkilatçıları tərəfindən yaradılmış birgə Komissiya da iştirak edəcəkdir.

Müsabiqədə akademiya təşkilatlarından, ali təhsil müəssisələrindən, nazirliklərin nəzdindəki elmi-tədqiqat qurumlarından, QHT-lərdən, İKT ilə əlaqəli şirkətlərdən alim və mütəxəssislər, həmçinin fərdi şəkildə alimlər iştirakedə bilərlər.

İKT sahəsində dərc olunmuş **ən yaxşı elmi işlərin** aşağıdakı nominasiyalar üzrə diplom, pul və hədiyyələrlə mükafatlandırılması nəzərdətutulmuşdur:

1. Alim və mütəxəssislər üçün
   - 1-ci yer: 2500 manat (1 mükafat)
   - 2-ci yer: 2000 manat (2 mükafat)
   - 3-cü yer: 1500 manat (2 mükafat)

2. Gənc alimlər (35 yaşadək) üçün
   - 1-ci yer: 2000 manat (1 mükafat)
   - 2-ci yer: 1500 manat (2 mükafat)
   - 3-cü yer: 1000 manat (2 mükafat)

Müsabiqəyə təqdim edilən elmi işlər (məqalə, monoqrafiya) və elmi ideyalar aşağıdakı əsas tələblərə cavab verməlidir:

- Elmi işin əsli (orijinalı) təqdim olunmalıdır;
- Elmi iş nüfuzlu (SCİ və digər yüksək indekslərə daxil olan və impakt faktorlu) jurnal və ya nəşriyyatda dərc olunmalıdır;
- Elmi işin nəşr olunma tarixi: yanvar 2011-ci il – noyabr-2013-cü il arasında olmalıdır;
- Elmi işə istinadlar olmalı və bu istinadlar müsabiqə sənədlərində dəqiq öz əksini tapmalıdır;
- Elmi iş müəlliflər qrupu tərəfindən yerinə yetirilmişdirsə, hər müəllifin bu elmi işin müsabiqədə iştirakına dair yazılı razılığı olmalıdır (Azərbaycandan olan müsabiqə iştirakçıları Forma 1-i imzalayır, xaricdən olan həm-müəlliflər isə imzalanmış və skan edilmiş razılığı birbaşa *info@elmfondu.az* elektron ünvanına göndərirlər);
- Elmi işin çap olunduğu jurnala və ya nəşriyyata müəlliflik hüquqları verildiyi təqdirdə müsabiqədə iştiraka bu qurumlar tərəfindən etiraz olmaması barədə

müvafiq sənəd və ya bildiriş olmalıdır;
- Elmi işlə bağlı internet linkləri (veb səhifələr, nəşriyyat, istinadlar və s.) göstərilməlidir;
- Müsabiqəyə yalnız 1 nominasiya üzrə 1 iş (və ya, eyni müəlliflər qrupu olduğu təqdirdə, göstərilən dövr üçün işlər seriyası) təqdim edilə bilər;
- Bu müsabiqə çərçivəsində eyni bir müəllif və ya həm-müəllif iki dəfə mükafatlandırıla bilməz;
- Müsabiqəyə sənədlərin təqdimi 1 müəllif/həm-müəllif tərəfindən həyata keçirilə bilər;
- Digər ölkədaxili və ya regional/beynəlxalq müsabiqələrdə iştirak edərək mükafatlandırılmış elmi işlər və elmi ideyalar bu müsabiqədə iştirak edə bilməzlər;
- Tezis, konfrans materiallarında çap olunmuş işlər baxılmaq üçün müsabiqəyə qəbul edilmir.

Qaliblərin seçimi zamanı:
- nüfuzlu (SCİ daxil olan, impakt faktorlu) jurnal və ya nəşriyyatlarda dərc olunmuş,
- tətbiqi xarakterli,
- istinad olunmuş (müəllif(lər)in özünə istinadı istisna olmaqla) elmi işlərə üstünlük veriləcəkdir.

Qalib olan elmi iş müəlliflər qrupu tərəfindən yerinə yetirilmişdirsə, pul mükafatı Azərbaycan vətəndaşı olan həm-müəlliflər arasında bərabər qaydada bölünür və hər bir yerli və xarici həm-müəllifə diplom verilir, təqdim olunan hədiyyə(lər) isə bütövlükdə qrupa təqdim olunur. Bu zaman xarici həm-müəlliflərin müsabiqə şərtləri haqqında tam məlumatlandırılması üzrə məsuliyyəti elmi işi müsabiqəyə təqdim edən yerli həm-müəllif(lər) daşıyır.

Müsabiqədə iştirak etmək üçün müvafiq sənədlər və digər müşayiətedici materiallar **2013-cü il 14 noyabr** tarixindən başlayaraq qəbul olunur.

Müsabiqədə iştirak etmək üçün müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix **2013-cü il 26 noyabr** saat 17:00-dır.

Müsabiqənin nəticələrinin 2013-cü ilin dekabr ayında açıqlanması planlaşdırılır.

Müsabiqədə iştirak üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:
1. Müsabiqədə iştirak üçün tələb olunan ərizə (Forma 1);
2. Elmi iş (əsli və surəti);
3. Elmi işin nəşri ilə bağlı internet linkləri;
4. Müsabiqədə iştirak edən müəllif və hər bir həm-müəllif haqqında (Forma 2a) və onların təmsil etdikləri qurum(lar) haqqında (Forma 2b) məlumat;
5. Elmi fəaliyyət haqqında arayış (hər bir müəllif/həm-müəllif tərəfindən yazılır) (Forma 2c);
6. Son 5 ildə dərc olunmuş elmi əsərlərin təsdiq olunmuş siyahısı (Forma 2d) (hər bir müəllif/həm-müəllif tərəfindən yazılır);
7. Elmi işə olan istinadlar (elektron linklər, surətlər);
8. Elmi işin nəticələrinin müzakirə və ya məruzə olunduğu elmi nəşr və tədbirlər haqqında məlumat;

9. Müəllifin (həm-müəlliflərin) şəxsiyyət vəsiqə(lər)(s)inin surət(lər)i.

Müsabiqədə iştirakla bağlı sənədlər və digər müşayiətedici materiallar 2 nüsxədə olmaqla üç formatda (kağız üzərində, elektron məlumat daşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. Müsabiqədə iştirak etmək üçün imzalanmış formaların, əlavə olunan sənədlərin və digər müşayiətedici materialların əslini (orijinalını) və/və ya A4 formatlı ağ kağızda çap olunmuş/surəti çıxarılmış variantını və skan edilmiş formasını elektron məlumat daşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:

- Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına **(AZ-1069, Bakı şəhəri, Atatürk prospekti, 48B)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
  və ya
- Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **inzibati binasına** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);

2. Müsabiqədə iştirak etmək üçün sənədlərin və digər müşayiətedici materialların elektron variantını Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "EİF-RİTN-NAR-BCG-İKT-3-2013 – *Təqdim edən şəxsin soyadı və adı - Nominasiyanın adı*").

Formaların, sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti təqdim edən şəxs daşıyır.

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan sənədlər müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər bir qayda olaraq geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən ekspertiza mərhələsində saxta sənəd, imza və məlumatların təqdim olunması müsabiqədən kənarlaşdırılmaya səbəb olur.

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur.

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə məsləhət seminarlarının keçirilməsi nəzərdə tutulmuşdur.

İKT-3 mükafat müsabiqəsinin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün tələb olunan formalar, müvafiq sənədlər və digər müşayiətedici materialların verilməsi qaydaları, seminarların tarixi ilə Elmin İnkişafı Fondunun internet səhifəsində (http://sdf.gov.az) tanış olmaq olar.

Əlaqə telefonu: *(012) 563-61-11*

Elektron-poçt ünvanı: *qrant@elmfondu.az*

**Təşkilatçılar**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondu**
**sdf.gov.az**

**Azərbaycan Respublikasının**
**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**
**mincom.gov.az**

**Təşkilati dəstək**

**UNESCO üzrə**
**Azərbaycan Respublikasının**
**Milli Komissiyası**

BMT-nin
Təhsil, Elm və
Mədəniyyət Təşkilatı

UNESCO üzrə
Azərbaycan Respublikasının
Milli Komissiyası

**Sponsorlar**

**“Nar Mobile”**
**mobil operatoru**
**narmobile.az**

**“BestComp Group”**
**şirkəti**
**bestcomp.net**